# *Koto ROBER:* "Müstəmləkə dövlətinin zülmündən, boyunduruğundan qurtulmaq istəyirik"




**"Kanak xalqı ölkəsini bizlərlə - katorqaya göndərilən avropalılarla paylaşır və bizlər də onlarla bərabər müstəqillik arzusundayıq. Müstəmləkə dövlətinin zülmündən, boyunduruğundan azad olmaq istəyirik. Onilliklərlə ölkəmizi ən pis vəziyyətə salıblar. Müstəqilliyimizi bərpa etməklə ölkəmizin təbii ehtiyatlarına, zənginliklərinə yiyələnə bilərik. Bununla da daha yaxşı sosial həyat səviyyəsinin və burada yaşayan etnik qruplar arasında tarazlığın yaradılmasına töhfə verə bilərik".**

Bu fikirləri AZƏRTAC-a Yeni kaledoniyalı parlamentari Korto Rober söyləyib.

"1853-cü ildə avropalılar Kaledoniyaya gəliblər və o vaxtdan da bu torpaqlarda yaşayırlar. Onlar kaldoş, yəni yerli əhalidir", - deyən parlamentari əlavə edib ki, 170 il əvvəl kanak xalqı onları mehribanlıqla qarşılayıb.

Korto Rober həmçinin qeyd edib: "Bu gün kanak xalqı bu ölkəni bizimlə paylaşır, biz yerli əhali hesab olunuruq. Onlarla bərabər biz də müstəqillik arzulayırıq".

Vurğulanıb ki, kanak və kaldoş xalqları Fransa hökumətinin yeni müstəmləkəçilik siyasətinə qarşı birlikdə mübarizə apara bilərlər. Məhz bu məqsədlə onlar Fransa dövlətinin Yeni Kaledoniyanı yenidən müstəmləkəyə çevirmək, kanak xalqını əsarət altına almaq siyasətinə etirazlarını bildirir, konfranslar keçirərək maarifləndirmə aparırlar.

---

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.5.